Долгое время Октай Зульфигаров трудился на Азербайджанском телевидении. Он внес огромный вклад в искусство театра и кино.

## ROLE OF OCTAY ZULFIGAROV IN THE MUSICAL EDUCATION OF CHILDREN

*Mammadova Rashida Hamlet*

***Summary***

Oktay Zulfugarov is known as one of the greatest children's composers of Azerbaijan. The composer has dedicated more than 60 years of his life to the writing of children's songs and the development of Azerbaijani culture.

Oktay Zulfugarov, who always treated children with great love and sensitivity, created cheerful and beautiful songs for them and grew up with these songs for many generations. In this sense, his multifaceted heritage has an axceptional place in the history of compositional music activity Azerbaijan.

Oktay Zulfugarov worked continuously, effectively and multifaceted, from singing to childrens opera, as well as from small groups to the creation of childrens theater, and until the end of his life he considered this field his main, first – class work.

***Rəyçi:Məmmədova Qəsirə***
***Musiqi kafedrasının 26 oktyabr 2021-ci il tarixli iclasın 07 saylı protokolu***
***Daxil olduğu tarixi 10 noyabr 2021-ci il***

**UOT -37.01**

## NATURADAN RƏSM DƏRSLƏRİNİN TƏŞKİLİNƏ VERİLƏN ƏSAS TƏLƏBLƏR

***Allahverdiyeva Raziyyə Qiyas qızı***
***Gəncə Dövlət Universiteti***
**tunzalehuseyinova70@gmail.com**

**Xülasə:** *Məktəbdə naturadan rəsm təliminin şagirdlərin əqli bacarıqlarının inkişafına gətirib çıxardığını əsas götürərək məşğələlərdə uşaqlara əşyaların formalarını perspektiva, kölgələr nəzəriyyəsi, rəngləmə, anatomiya kimi elmi məlumatlar əsasında da düzgün təhlil etməyə alışdırmaq vacib məsələdir.*

*Naturadan rəsm uşaqlarda aydın ifadəli təsəvvür yaratmaqla onları yaddaşını inkişaf etdirir. Obrazlı yaddaşın insan həyatında rolu böyükdür. Lakin naturadan rəsmin təsiri təkcə obrazlı yaddaşla məhdudlaşmır, o həm də digər yaddaş növlərinə təsir edir. Əşyalar haqqında aydın təsəvvür əsasında şagirdin obrazlı yaddaşı ilə yanaşı təxəyyülü də inkişaf edir.*

*Naturadan rəsm uşaqların estetik tərbiyəsində gözəl vasitə hesab olunur. Uşaqlar naturadan mənzərə, ağac, gül rəsm edərkən bu əşyaların xarakterik formasını öyrənməklə onlarda təbiətin gözəlliyinə, bolluğuna və əlvanlığına maraq hissi oyanır. Onlar tam və hissələrin nisbi mütənasibliyini görür, təbiət formalarında ritm və harmoniyanı tuturlar.*

*Naturadan rəsm məşğələləri də digər məşğələ növləri kimi tədris materialının məntiqi ardıcıllığını gözləməklə, materialın həcmini, mövzunun məzmun dərinliyini və vaxtını nəzərə almaqla qurulur.*

*Naturadan rəsm məşğələləri ancaq şagirdlərə düzgün metodiki rəhbərlik etməklə lazım olan ümumtəhsil və tərbiyəvi əhəmiyyət kəsb edə bilər.*

**Açar sözlər:** rəsm, naturadan rəsm, yaradıcılıq, bacarıq
**Ключевые слова:** рисование, живопись на природе, креативность, навык
**Keywords:** Painting, painting in nature, creativity, skill,

Təsviri incəsənət dərsinin ən mühüm bölməsindən naturadan rəsm dərsləridir. Tədris proqramlarında naturadan rəsm dərslərinə müəyyən saatlar ayrılmışdır. Naturadan rəsm dərsləri şagirdlərin bədii təfəkkürünün inkişafına müsbət təsir göstərən amillərdən biridir. Digər bölmələr kimi naturadan rəsm dərslərinin səmərəliliyinin artırılması yollarından ən effektlisi biliklərin verilməsi zamanı şagirdlərin yaradıcı təfəkkürünü işə salmaq, ona istinad etməkdir. Əks halda, yəni şagirdlərə veriləcək biliklər hazır şəkildə verilərsə, təfəkkür özünün müstəqillik, təşəbbüskarlıq kimi yaradıcı mənbələrindən məhrum olunar. Naturadan rəsm dərslərində şagirdin təfəkkürünü fəaalaşdırmaqla onun yeni biliklərə müstəqil yiyələnməsinə şərait yaradan ənənəvi metodikalardan keyfiyyətcə fərqlənən yeni interaktiv təlim üsulları idrak fəaliyyətinin təşkil və idarə olunması üsulları olub, müəllim tərəfindən idrakı problem - situasiyasının yaradılması, problem - situasiyanın həlli zamanı şagirdlərin fəal tədqiqatçı mövqeyinin həvəsləndirilməsi və şagird üçün maraqlı və yeni biliklərin müstəqil kəşf edilməsi və mənimsənilməsi ilə xarakterizə edilir.

Naturadan rəsm dərslərində fəal təlim bir sistem kimi təkcə interaktiv üsullardan istifadə edilməsini deyil, eyni zamanda yeni prinsiplərə uyğun olaraq təlim- tərbiyə prosesinin yeni tədris plan və proqramlarının işlənib hazırlanması və tətbiqi kimi məsələlərə yenidən baxılmasını nəzərdə tutur.

Təsviri incəsənət proqramlarında naturadan rəsm dərslərində keçirilən mövzulara diqqət yetirsək görərik ki, bu mövzular müxtəlif məzmun və məqsəd daşıyır. Fəal təlim tətbiq edilməsi ilə tədris olunan mövzular təhsil islahatının prinsiplərinə əsaslanan məqsəd və vəzifələri yerinə yetirməyə imkan yaradır.

a)Müasir tələblərə cavab verən təlimin məzmununu yaratmağa

b)Obyektiv və çevik qiymətləndirmə sistemi tətbiq etməyə

v)Milli, demokratik sosisal-psixoloji mühit yaratmağa

Məhz yuxarıda qeyd olunan yolla şagirdlərə öz fəaliyyətini təşkil etməyini və planlaşmağı öyrətmək, tədqiqat apara bilmək bacarıq və vərdişlərini inkişaf etdirmək, onların təxəyyülünü, məntiqi və tənqidi təfəkkürünü, yaradıcı potesiallarını yüksəltmək daha asan və səmərəli olar.

Məlumdur ki böyüməkdə olan nəsil əsasən ümumtəhsil məktəblərində yetişir, formalaşır. Buna görə də məhz orta ümumtəhsil illərində şagirdlərin hərtərəfli, ahəngdar inkişafının təmin edilməsi və bu işdə daha çox rol oynayan estetik təsir vasitələrindən müntəzəm, sistemlə istifadə olunması qarşıda duran mühüm vəzifələrdən biri kimi qiymətləndirilir.

Müasir dövrdə böyüməkdə olan nəsli həyata elə hazırlamaq lazımdır ki, bu hazırlıq elmi-texniki tərəqqinin və müasir mədəni səviyyənin tələblərinə cavab versin, milli kökə qayıdışı təmin etsin. Odur ki, bütün ümumtəhsil fənləri kimi təsviri incəsənətin tədrisi də yeni tələblər üzərində qurulmalı, proqram və dəyişikliklər kökündən dəyişdirilməli, milli ruhda hazırlanmalıdır.

Şagirdlər naturadan rəsm edərkən canlı və cansız varlıqları öyrənməklə bərabər onların görmə qabiliyyətləri də inkişaf edir. Hafizələri möhkəmlənir. Bu məşğələlərdən aldıqları biliklər başqa fənnlərin də təliminə kömək edir.

Naturadan rəsm çəkərkən şagird naturaya diqqətlə baxır, çalışır ki, onun xarakterik xüsusiyyətlərini qeyd etsin, əşyanın quruluşunu dərk etsin. Naturavdan rəsm çəkilərkən əşya haqqında anlayışlar daha da genişlənir və aydınlaşır. Çünki rəsm zamanı göz qarşısında olan əşyanın hissələri ölçülür, müqayisə olunur, təhlil edilir.

Başqa heç bir tədris fənni naturadan rəsm qədər uşaqların diqqətini əşyalara, onların quruluşunun təhlilinə cəlb edə bilmir.

Məktəbdə naturadan rəsm təliminin şagirdlərin əqli bacarıqlarının inkişafına gətirib çıxardığını əsas götürərək məşğələlərdə uşaqlara əşyaların formalarını perspektiva, kölgələr

nəzəriyyəsi, rəngləmə, anatomiya kimi elmi məlumatlar əsasında da düzgün təhlil etməyə alışdırmaq vacib məsələdir.

Uşaqlara əşyaların formalarına düzgün baxmağı və təhlil etməyi öyrətmək asandır. Onlar tez-tez naturanın kiçik hissələrinə özlərinin diqqətli münasibətləri ilə bizi heyran edərək əşyanın kiçik hissələrini xüsusi sevgi və səliqə ilə köçürürlər. Bu xususiyyət bizə imkan verir ki, çətinlik çəkmədən uşağın diqqətini əşyanın formasının qurulma xüsusiyyətinə yönəldək, onu düzgün görməyi, formasını dərk etməyi və təsvir etməyi öyrədək.

Naturadan rəsmin böyük əhəmiyyəti xüsusilə fəza təsəvvürünün inkişafında özünü göstərir. Bu sahədə perspektiv rəsmin rolu daha böyükdür. Perspektivanın elementar qaydaları ilə tanışlıq zamanı fəza təfəkkürünün mürəkkəbliyi ortaya çıxır. Kağız üzərində həcmli əşyaların üç ölçülü təsviri şagirdləri təfəkkürünü və təsəvvürünü inkişaf etdirməyə məcbur edir. Fiqurun bütün qrafik təsvirləri təsvir olunan əşyanın görmə yaddaşı əsasında dərk olunmasına əsaslanır. Rəsm çəkən əşyanın quruluşunu, hissələri arasındakı qarşılıqlı əlaqəni, xarakterik formaları, fəzadakı vəziyyətini aydın təsəvvür etməlidir.

Naturadan rəsm uşaqlarda aydın ifadəli təsəvvür yaratmaqla onları yaddaşını inkişaf etdirir. Obrazlı yaddaşın insan həyatında rolu böyükdür. Lakin naturadan rəsmin təsiri təkcə obrazlı yaddaşla məhdudlaşmır, o həm də digər yaddaş növlərinə təsir edir. Əşyalar haqqında aydın təsəvvür əsasında şagirdin obrazlı yaddaşı ilə yanaşı təxəyyülü də inkişaf edir.

Ümumtəhsil məktəblərində naturadan rəsmdə əşyalar təkcə işıq-kölgə vasitəsilə karandaşla təsvir etdirilmir. Həmçinin rəngkarlıq elementlərindən də istifadə edilir.

Rəngkarlığın təlimi qarşısında naturadan ayrı-ayrı əşyaların, sadə natürmortların, interyer və mənzərələrin təsviri vəzifəsi durur. Şagərdlər rəngkarlıq elementləri ilə tanış olaraq karandaşla, sulu boyalarla, quaşla işləməyin texniki fəndlərinə yiyələnirlər. Birinci sinifdə şagirdlər rəng qarışıqlarından istifadə etmədən sulu boya ilə təbiət əşyalarını (yarpaq, həşərat və s.) rəsm edirlər. Üçüncü sinifdə isə onlar naturaya uyğun gələn rəngləri qarışdırmaq yolu ilə almağı öyrənir və rəng çalarları ilə tanış olurlar.

Naturadan rəsm uşaqların estetik tərbiyəsində gözəl vasitə hesab olunur. Uşaqlar naturadan mənzərə, ağac, gül rəsm edərkən bu əşyaların xarakterik formasını öyrənməklə onlarda təbiətin gözəlliyinə, bolluğuna və əlvanlığına maraq hissi oyanır. Onlar tam və hissələrin nisbi mütənasibliyini görür, təbiət formalarında ritm və harmoniyanı tuturlar.

Naturadan rəsm məşğələləri də digər məşğələ növləri kimi tədris materialının məntiqi ardıcıllığını gözləməklə, materialın həcmini, mövzunun məzmun dərinliyini və vaxtını nəzərə almaqla qurulur.

Naturadan rəsm məşğələləri ancaq şagirdlərə düzgün metodiki rəhbərlik etməklə lazım olan ümumtəhsil və tərbiyəvi əhəmiyyət kəsb edə bilər.

Məktəbdə naturadan rəsmdən danışarkən nəzərə almaq lazımdır ki, uşaqların təsviri fəaliyyəti məktəb şəraitində artıq birinci sinifdən başlayaraq oyun fəaliyyəti olmaqdan çıxır və tədris fəaliyyətinə çevrilir. Odur ki, birinci sinifdən başlayaraq uşaqları realist rəsmin əsasları ilə tanış etmək, sadəlövh və primitiv vərdişlərdən uzaqlaşdırmaq lazımdır.

Unutmaq olmaz ki, naturadan rəsm məşğələsindən söhbət gedirsə natura qurulmalıdır. Əyani vəsait üzərində mövzunun işlənmə ardıcıllığı izah edildikdən sonra isə əyani vəsait götürülməlidir. Əks təqdirdə şagirdlər naturaya baxmadan əyani vəsaiti köçürməklə məşğul olacaqlar. Bu isə yol verilməzdir. Çünki şagirdlərin naturaya baxış istiqamətləri eyni deyildir. Onlar qurulmuş naturaya müxtəlif tərəflərdən baxırlar. Odur ki, rəsmləri də eyni ola bilməz, hətta bəzi hallarda müxtəlif siniflərdə eyni səviyyəli əyani vəsaitlərdən istifadə edilməsinə də rast gəlirik. Bu vaxt da şagirdlərin yaş səviyyəsi, bilik, bacarıq və vərdişləri gözlənilmir.

Naturadan rəsmlər işləndikdən sonra onların müqayisəli təhlili və natura ilə uyğunluğunun yoxlanılması da mühüm şərtlərdəndir. Belə olduqda şagirdlər öz səhvlərini şüurlu şəkildə dərk edir və aradan qaldırmağa çalışırlar. Təhlilə bütün sinfi cəlb etmək, mənfi

və müsbət cəhətləri şagirdlərin özlərinə dedirtmək lazımdır. Bu həm də şagirdlərin diqqətini naturaya yönəldir, fəallığını təmin edir.

***Ədəbiyyat***

R. Əfəndi "Azərbaycan incəsənəti " Bakı -2007
L. Veysova. "Fəal interaktiv təlim " **.** Müəllimlər üçün vəsait Bakı – 2007
Təsviri incəsənət proqramı I **-** IX siniflər üçün Bakı – 2006
C.Novruzova "Azərbaycan heykəltəraşlığı" Bakı **-**1973
S. Ağayev "İbtidai siniflərdə təsviri sənətin tədrisi metodikası "Bakı – 2001
R. Əfəndi " Azərbaycan xalq sənəti" Bakı – 1984
K.Kərimov "Azərbaycan miniatürləri" Bakı – 1980
Ə.Verdiyev "Dəzgah rəngkarlığı" Bakı – 1988

## ОСНОВНЫЕ ТРЕБОВАНИЯ К ОРГАНИЗАЦИИ УРОКОВ РИСОВАНИЯ С НАТУРЫ

***Аллахвердиева Разия Гияс кызы***

***Резюме***

Важно научить детей анализировать формы предметов в классе на основе научной информации, такой как перспектива, теория теней, окраска, анатомия, исходя из того факта, что рисование на природе приводит к развитию умственных способностей учащихся.

Рисование с натуры развивает детскую память, создавая четкий и выразительный образ. Роль образной памяти в жизни человека велика. Однако влияние живописи на природу не ограничивается образной памятью, оно влияет и на другие типы памяти. На основе четкого представления о вещах развивается воображение школьника и образная память.

Рисование с натуры - прекрасный инструмент в эстетическом воспитании детей. Когда дети рисуют пейзажи, деревья и цветы с натуры, они узнают о характерной форме этих предметов и пробуждают у них интерес к красоте, изобилию и разнообразию природы. Они видят полные пропорции целого и частей и занимают ритм и гармонию в формах природы.

Уроки рисования на природе, как и другие виды занятий, организуются с учетом логической последовательности учебного материала с учетом объема материала, глубины и хронометража содержания темы.

Уроки рисования на природе могут иметь общеобразовательную и педагогическую ценность, необходимую учащимся, только в том случае, если они руководствуются правильной методикой.

## BASIC REQUIREMENTS FOR ORGANIZING DRAWING LESSONS FROM NATURE

***Allahverdiyeva Raziya Giyas kyzy***

***Summary***

It is important to teach children to analyze the shapes of objects in the classroom based on scientific information such as perspective, shadow theory, coloring, anatomy, based on the fact that drawing in nature leads to the development of students' mental abilities.

Drawing from life develops children's memory, creating a clear and expressive image. The role of figurative memory in human life is great. However, the influence of painting on nature is not limited to figurative memory, it also affects other types of memory. On the basis of a clear idea of things, the student's imagination and figurative memory develops.

Drawing from nature is an excellent tool in the aesthetic education of children. When children paint landscapes, trees and flowers from nature, they learn about the characteristic shape of these objects and awaken their interest in the beauty, abundance and diversity of nature. They see the full proportions of the whole and the parts and occupy rhythm and harmony in the forms of nature.

Drawing lessons in nature, like other types of classes, are organized taking into account the logical sequence of the educational material, taking into account the volume of the material, the depth and timing of the topic content.

Drawing lessons in nature can have the educational and pedagogical value that students need only if they are guided by the correct methodology.

***Rəyçi: Əbülfəz Əiyev***
***Təsviri incəsənət kafedrasının 26 noyabr 2021-ci il tarixli iclasın 03 saylı protokolu***
***Daxil olduğu tarix 20 dekabr 2021-ci il***

**UOT -37.01.**

# MƏNZƏRƏNİN AKVAREL ÜSULU İLƏ İŞLƏNMƏSİ

***p.ü.f.d., dosent Hüseynov Akif Əlirza***
***SSRİ Rəssamlar İttifaqının üzvü***
***Gəncə Dövlət Universiteti***
elnara.rasulova70@gmail.com

**Xülasə:** *Məqsədimiz, ali məktəblərdə akvarel rəngkarlığının təsvir edilməsi qaydalarını tələbələrə öyrətməkdən ibarətdir. Əsas məqsəd tələbələrin bilik və bacarıqlarını yüksəltməyə yönəltməkdir.*

*Akvarel rəngkarlığı – təsviri incəsənət müəlliminin hazırlanması sistemində mühüm tədris fənnidir. Başqa fənlərlə yanaşı rəngkarlığın öyrənilməsi orta məktəb üçün ixtisaslı kadrlar hazırlanmasına kömək edir.*

**Açar sözlər:** Akvarel-sulu boya, kolorit rəng uyğunluğu, janr-növ, planşet-taxta lövhə

**Ключевые слова:**Акварель-Акварель, подбор цветов, жанр-тип, планшет-деревянная доска

**Keywords**:Watercolor-Watercolor, color matching, genre-type, tablet -wooden board

İnsan həyatının elə bir sahəsi yoxdur ki, bu sənətin nümunələrinə o cümlədən mənzərə və əsərlərinə təsadüf etməsin. Doğrudan da təsviri sənət bizi hər yerdə əhatə edir.

Sənət əsəri ilhamlı təxəyyülün sonsuz axtarışların, ürək çırpıntılarının nəticəsidir. Bunun nəticəsində təsviri incəsənətin klassik nümunələri insan təbiətinə tükənməz vüsat ehtirasla, incə və təsirli ifadə qüvvəsi ilə yol tapır.

İnsanın hisləri estetik tələblərə müxtəlif olduğu kimi, bu hislərə qida verən incəsənətin növləri də müxtəlifdir. Hər bir sənət növünün özünəməxsus spesifik ifadə forması obrazları sistemi vardır.

Mənzərə janrını – tez – tez məişət, batal və tarixi janrlarla bir vacib əlavə kimi baxılır, amma hər halda mənzərə janrı bir müstəqil təsviri incəsənət növü kimi öz yerini möhkəm saxlayır. Mənzərə janrının özəl xüsusiyyəti ondadır ki, sadə və sıravi vətəndaşa daha da yaxındır, amma bəzən insan özü mənzərədə təsvir olunmur, əksəriyyət işlərdə sadəcə təbiət flora və fauna təsvir edilir.